Yeni kitablar

# Özünə dönən türkün şairi

**Xalq şairi Sabir Rüstəmxanlının ta gənclik illərindən üzü bəri dostluq etdiyi gözəl şairimiz Məmməd İsmayıl məşhur şeirlərindən birində deyir:**

*Bir adam yol gedir bizdən qabaqda,*
*Yaxşı ki, dünyaya cığır açan var.*

Onlar birlikdə çox yol gediblər, Yardımlıda, Tovuzda, Çanaqqalada, dünyanın çox meridianlarında olublar və öndə gedən Vətən, millət sevgili sələflərinin açdığı cığırları yola çevirməyi bacarıblar. İndi özləri öndə gedir, məslək, əqidə yolçuluğunda mayaka çevriliblər.

Bir neçə ay öncə illərdən bəri Türkiyədə yaşayan Məmməd İsmayıl səhhətindəki nasazlıq üzündən Vətənə qayıdanda Sabir bəy ona evində ilk baş çəkənlərdən oldu və millət, Vətən, ruh halı, Araz–Kür timsallı ömür-günlə bağlı aralarında olan söhbəti tam mətni ilə mediaya çıxardı. Təsadüfi deyil ki, filoloq-jurnalist, VHP mənsubu Nəsimi Şərəfxanlı Sabir Rüstəmxanlının ömür yolu barədə qələmə aldığı kitabını məhz onun dostuna aid misra ilə “Bir adam yol gedir bizdən qabaqda” adlandırıb. Bu həm də Milli Məclis deputatının VHP üzrə partiyadaşlarının qənaətidir.

Sabir Rüstəmxanlı “sovet cəhənnəmində” doğulan, o quruluşun zəhərli havasında boğulmayan, əsir-yesir olmayan, şirin ana dilində, ata mülkündə özünəməxsus, bənzərsiz söz qalasını kərpic-kərpic, daş-daş hörən şəxsiyyətdir. O, “Ruhumuz sərhədsizdir”, – deyə-deyə möhtəşəmliyə yüksəlib: poeziya, publisistika və nəsrdə “qızıl qələm” işlədib, millətinin dərdlərini oxuyub, yaralarına məlhəm axtarıb, ən yüksək tribunalardan çəkinmədən “mən türk oğlu türkəm, şah nəslindənəm!” – söyləyib.

Bu misraları Sabir Rüstəmxanlı hələ universitet tələbəsi olarkən, 18 yaşında qələmə alıb:

*Keçirəm Moskva prospektindən*
*Təbriz xiyabanı həsrətiylə mən.*

Əlbəttə, gənc şair “Təbriz küçəsi” də deyə bilərdi. Bizcə, məhz “xiyaban” yazmağın bir sətiraltı mənası da Güney Azərbaycanda milli-azadlıq hərəkatına rəhbərlik etmiş, quzeylərdə adına senzura yasağı qoyulmuş Şeyx Məhəmməd Xiyabanini təhtəlşüur xatırlatmaq olub. Kitabda ali təhsil ala-ala “Azərkitab”da fəhlə, Səhiyyə nazirliyinin dərman anbarında qarovulçu işləyən, tələbə ikən bir məqaləsi ilə “Ədəbiyyat” qəzetinə işə götürülən, sonralar həmin “Azərkitab”ın da daxil olduğu Mətbuat və İnformasiya Nazirliyinə rəhbərlik edən, dəfələrlə deputat seçilən Sabir Rüstəmxanlının kimliyindən verilən işıqlı sətirlər də göstərir ki, o, həqiqətən də, tay-tuşlarından və ardıcıllarından qabaqda gedən dəyərli bir ziyalıdır.

Sabir bəy hər zaman milli mənsubiyyəti ilə öyünə-öyünə bütün çətinliklərə sinə gərib, cahanı dolaşıb, əski Turan ellərini gəzib, öyrənə-öyrənə, öyrədə-öyrədə, yaza-yaza böyük əqidə yolunun həmişəlik yolçusuna çevrilib, qələm aləmimizə Rüstəmxanlı möhürünü vurub.




Səhifələrində bütün bunlar haqqında ətraflı danışılan yeni kitab, şair-publisist, yazıçı, türkoloq, dövlət adamı Sabir Rüstəmxanlının ömür yoluna tutulan daha bir çıraq kimi maraqlıdır. “Ön söz”də redaktor Samir Əsədlinin yazdığı kimi, dünya türklərini qan yaddaşını unutmamağa, milləti həmrəyliyə çağıran və ona Ulu Tanrıdan kömək diləyən Sabir bəyin ucqar Hamarkənddən gələrək Bakının Azadlıq meydanında milyonlar qarşısında alovlu çıxışlar etməsi, milli şüuru oyatması yaddaşlardadır. “Meydan sərkərdəliyi tək onun gücü deyildi, minilliklər boyu yol gələn bir ruh davamçılığının gerçək ifadəsi idi – “Titrəyib özünə dönən Türk”ün qırımı idi.

Kitabdakı yazılar “Torpağı ot deyil, kişi göyərdən Vətən”, “Ucqar deyilən ucalıqdan”, “Alim Sabir Rüstəmxanlı”, “Manifesti – Ömür kitabı”,“Bütöv Azərbaycana doğru” və digər başlıqlarla verilib. Hər biri də böyük maraqla oxunur.

Şeirlərinin birində şair öz yaradıcılığının ilkin “parolu” və proqramı kimi Vətəni belə tərənnüm edib:

***Ələsgərin sazıdı,***
***Qədim əlyazmasıdı,***
***Dahilər boylanır sətirlərindən –***
***Vətən,.. Vətən.***

Sətirlərindən Sabir Rüstəmxanlı vüqarı boylanan və ünlü qələm sahibinin layiqincə qoruduğu ruh davamçılığından bəhs edən “Bir adam yol gedir bizdən qabaqda” kitabı həssas oxucu diqqətindən kənarda qalmayacaq.

*Əli NƏCƏFXANLI*
*XQ*